# Qələmlə, yaxud qələmsiz...



**Pərvin**

Rəşad Məcid şəkli yazı zamanında yaşasaydı, ideoqrafik yazı üsulundan istifadə edərdi. Millət qumda, torpaqda şəkil çəkəndə daşlarda cızardı fikirlərini, yazılmayan dağ-daş qalmasa, papirusu kəşf edərdi, o da çatmayanda ağacdan kağız yaratmaq sənətini öyrənərdi... Sonra işarələri düşünüb tapardı, heroqliflərdən hərf “kəsmək” üçün dəridən-qabıqdan çıxardı. Hə, sonra alüminium qəliblər yaradardı, mətn yığardı belə üsulla. Lap, lap sonra da qəzet çıxarardı. Əslində bu xaotik cümlələrim Rəşad Məcidin getdiyi yol və dünyanın Rəşad Məcidə gətirib çıxaran yolu haqqındadır. Və mənə elə gəlir ki, bütün zamanlarda yazını düşünüb tapan, söz yaradıcılığının hər hansı üsulunu kəşf edən adamların hamısı Rəşad Məcidin ruh əcdadlarıdır. Əsas şərt yazmaqdı, yaxşı yazmaq, daha yaxşı yazmaq və yazdığını oxutmaq. Əgər qələm tarixən yazmağın da, yazıçılığın da simvolu olubsa, Rəşad Məcidin ondan imtina edib “Qələmsiz yazmaq” ideyasını aktuallaşdırması təsadüfi deyil. Çünki zaman, dövr dəyişib və Rəşad Məcidin çağdaşlıqla ayaqlaşan (və onu qabaqlayan!) xarakteri özünü göstərməlidir.

İllərdir ki, müasir mediada, yeni qəzet, yaxud saytlarda hər hansı layihə, rubrika açılanda, “525-ci”lərin eyni reaksiyası ilə qarşılaşıram: biz bunu çoxdan etmişik. Bu, əlbəttə, təkəbbür deyil, həqiqətdir. Bir tərəfdən çağdaş klassiklərə, xalqımızın dəyər adlandıra biləcəyi qələm sahiblərinə meydan vermək, digər yandan da görünmək, tanınmaq üçün hər cür əndrəbadiliyi eksperimentə çevirən yeni nəsillərə yer ayırmaq. Məncə, məhz bu yanaşma, prinsip “biz bunu çoxdan etmişik” fikrini “525-ci”lərin və əsas da Rəşad Məcidin halalına çevirib. Bu da novator, yenilikçi xarakterindən, müasirlikdən gələn məqamdır. Elə ona görə də kompüter çıxan kimi Rəşad Məcid qələmi atır, internetin, sosial medianın ən qədim istifadəçilərindən birinə çevrilir. Həm də saxta imza ilə, qondarma adla sadəcə izləyici kimi yox, öz adı, soyadı və mövqeyi ilə. Beləliklə, illərdir ki, ölkənin ən oxunaqlı qəzetinə baş redaktorluq edən adam özünə yeni bir meydan, məkan tapmış olur. Əlinizdə tutduğunuz bu kitab da sosial şəbəkədə az qala on il ərzində müxtəlif ovqatların, gündəmin, tarixi, yaxud “tarixsiz” hadisələrin təsiri ilə yazılanlardır.

Kitabın birinci hissəsindəki “Status-esselər” bir tərəfdən müəllifin gündəliyi təsirini bağışlayır, digər tərəfdən illər üzrə ölkə gündəminin necə dəyişməsi haqqında təsəvvür yaradır. Həmçinin sözün əbədi bir xilas olması fikrini qətiləşdirir:

“...yazmaq həmişə olacaq, cavan oğlan! Bir zaman Qobustan qayalarına yazıblar, yazmaq istəyənlər 2030-da da, sonra da bir ağ yer tapıb yazacaqlar!”

Müxtəlif sənətlərin sıradan çıxacağını deyən "kreativ" gəncə verilən bu cavab Rəşad Məcidin sözün gücünə inamını, ədəbiyyatın yaşayacağına əminliyini göstərir.

"Qələmsiz yazılanlar"a sözardında Rəşad müəllim zövqünə inandığı müxtəlif yazıçı, şair və alimlərin bu statusları yeni janr kimi qəbul etdiklərini və qəzetdə ardıcıl işıqlandırılan silsiləyə müsbət fikirlər bildirdiklərini yazır. Belə çıxır ki, çağdaş dinamik zamanda oxucu uzun mətnlərə, qalın romanlara vaxt sərf etmək istəmirsə, bu üsul sözü, ədəbiyyatı yaşatmaq uğrunda mübarizə vasitəsi sayıla bilər. Və ömrü boyu gerçək ədəbiyyatın, ziyalı sözünün, əsl sənətin keşiyində duran adam indi də bu yolla missiyasını davam etdirir. Amma səmimi söyləmək lazımdır ki, sosial şəbəkəni reklam vitrininə, göstəri bazarına çevirənlərin zamanında bu "Status-esselər" hətta bir az qəribə görünür adama. Bununla belə, əgər statuslar yeni janrdırsa, məncə, bu yeni formanın əsas üstün cəhəti səmimiliyi, açıqlığı olmalıdır. Çünki yalnız seçdiyin sayda adamı səhifənə qəbul edirsənsə, bəyənmədiyini silə, hətta bloklaya bilərsənsə, paylaşdıqların da bu "dost" adlandırılan kəsimə ünvanlanırsa, hoqqabazlığa nə ehtiyac?! Həm də müəllif Rəşad Məciddirsə, burda cəsarət, açıqlıq, səmimilik, təəssübkeşlik mütləq duyulmalıdır və duyulur da...

Beləliklə, on il keçib... Və bu on ildə Rəşad Məcid 45 yaşından 55 yaşına gəlib, Ağdamın, Şuşanın 10 işğal günü olub! Rəşad müəllimin yaşa dolması ilə doğma torpaqları itirməsini yanaşı deməyim təsadüf deyil. Məncə, istər bu, istərsə başqa ağrılı mövzularda zahirən sakit, soyuqqanlı, təmkinli danışan müəllif ən gözlənilməz məqamlarda içini gəmirən o həsrəti büruzə verir. Ona görə də əgər bu kitabdakı yazıları başqa prinsiplə qruplaşdırsaydıq, "Qarabağ həsrəti" adlı bölüm ən irihəcmli olardı. Şübhəsiz ki, oxucu bircə cümləlik "Yaddan çıxdı Qarabağ?" statusundan da, "Qarabağ" futbol komandasının qalibiyyətinə uşaqsayağı sevincin ifadəsindən də, luminiset lampalar haqqında xatirədən, Avropada motal pendiri yeyib Ağdamı yada salmaqdan bəhs edən esselərdən də müəllifin bu həsrətini, ağrısını duyacaq. Amma mən bu mövzuda şəxsi müşahidələrimi bölüşmək istərdim. Məsələ burasındadır ki, bizə, 90-cı illərin uşaqlarına Qarabağ itkisi də, ordan köçkün düşənlərin xarakteri də ayrı cür təqdim olunub. Hər il matəm günlərində torpaqların itkisindən bəhs edən verilişləri, kadrları görsək də, ayrı-ayrı sənət nümunələrindən Qarabağ mövzusunu öyrənsək də, bu məsələdə hərtərəfli bilgili deyilik. Çünki məncə, Qarabağın özünü də, bizim üçün hələlik faciəli, ağrılı taleyini də ayrı-ayrı insanların nümunəsində öyrənməliyik. Və məndən ötrü Rəşad Məcid Ağdamı, Şuşanı, Laçını öz "xəsis", sakit söhbətlərində istənilən tarixçidən, mütəxəssisdən daha yaxşı anladır. Həm də başqalarına göstərmək üçün edilən, süni vətənpərvərlik nümunəsi olan "vay-şüvənlər" ona yaddır. Ağdamda qoyub gəldikləri ev-eşik, mal-mülk haqqında danışdığını heç eşitməmişəm, bircə kitablardan söz düşəndə gizli bir ah çəkib, "Orda böyük kitabxanam qaldı" – deyir. "Şuşa gedəndə qolum qurudu" – deməyini, Şuşa haqqında söhbətlərini, Anarın, Toğrul Nərimanbəyovun sözlərindən nümunələr gətirməyini də unutmuram. Və bu torpaq, yurd sevgisinin başqalarının sözləri vasitəsiylə ifadəsi də, təmkinlə "qolum qurudu" – deməsi də məndən ötrü onun möhkəm xasiyyətinin göstəricisidir. Və elə bu kitabı da qoynuna almış, zəbt etmiş mövzu o gizlədilən, üstü basdırılan həsrətdən xəbər verir. Hərdən mənə elə gəlir ki, illər keçir, Rəşad Məcidin o quruyan qolu açılmaq bilmir ki, bilmir. Yadımdadır, 2011-ci ildə tədbirlərdən birində Rəşad müəllimi qanıqara görən mərhum istedadlı yazıçı dostumuz Zərdüşt Şəfizadə narahat olmuş, "masa arxasında birəlli hərəkət edirdiz, bu isə depressiya əlamətidi" – demişdi. Rəşad müəllim bu dəqiq müşahidədən təsirlənib Zərdüştə şeir də həsr etmişdi, "Sağ əlim" qoymuşdu adını və elmin bu tərəfi, insanın beyninin halına görə "əlsiz-qolsuzlaşması" müəmma qalmışdı onun üçün. İndi "Qələmsiz yazılanlar"ı, ordakı Qarabağ ağrılarını oxuduqca düşünürəm, o qol elə Şuşa gedəndə quruyandı, ən kiçik bir narahatlıqda özünü büruzə verir, ağrıyır, tərpənməz qalır və yenidən "yaşıllaşmağı" üçün Şuşanın havası, Laçının bulaqlarının suyu la-

zımdır. Amma haçan?! Yəqin, Rəşad Məcid bizdən səbirsizdir, bu sualın cavabın axtarır, təsəllinin imkanları azaldıqca nəfəsi kəsilir və sakit, təmkinli statuslar yazır:

"Hamımız zarıya-zarıya gedəcəyik: Qarabağı görmədən..."

"Sonra onun Qarabağ haqda dediklərini də xatırladı. Qarabağı sevməyə başlamasının səbəbi barədə dedikləri yadına düşdü. Elə bil ürəyini kimsə əlinə alıb aşağı hissəsini incə hərəkətlə ovucladı. Elə bil nəfəsi ona fasilələrlə verdilər".

"Qarabağda qürub ikiqat hüzndür!.. Yazıçılarla Cocuq Mərcanlıya getdik. Və bu duyğuları keçirdim".

Kitabda bu cür nümunələr çoxdur və ardıcıl oxuduqca düşünürəm, bu boyda sevgi və itki yalnız elə sakit-sakit ifadə oluna bilməz axı. Yadıma 2011-ci ildə Ağdamda – Quzanlıdakı çıxışı düşür, qəhərini boğa-boğa, əsən səsinə, kövrələn gözlərinə "ağlama" əmri verə-verə danışması... Amma nə qədər boğacaqsan, haracan verəcəksən bu əmri?! Məncə, burda heç kimi incitməmək, ağrınla heç kəsi yükləməmək düşüncəsi hakimdir. Amma... Amma ən doğmalar bilirlər, görüblər – "ağlama" əmrinə tabe olmayan adamın ağladığını da görüblər. Müsahibələrindən birində bunu da sakitcə etiraf edir: Səhərlər Üzeyir bəyin musiqisini eşidib hönkür-hönkür ağlaya bilərəm – deyir. Bax, budur Qarabağa ağlamaq... O xatirələr, Qarabağın təkrarsız gözəllikləri, ruhu, azadlığı – hamısı o musiqidədir, Üzeyir bəyin musiqisində. Ona görə, bəlkə, yalnız o musiqini eşidəndə Rəşad Məcid hisslərinə hakim olmur, "millətin yaratdığı dahiyanə sənətdən təsirlənirəm" – deyib doyunca ağlayır. Həm sənətin ecazkarlığına, həm də itirdiklərinə, itirdiklərimizə ağlayır...

Və bu cür həssas insanın sadəcə itirilənlərə heyifslənmək yox, daha çox var olanları qorumaq, dəyərləri təbliğ etmək xasiyyəti bütün yaradıcılığından, fəaliyyətindən, həmçinin "Qələmsiz yazılanlar"dan görünür. Rəşad müəllim illərdir ki, Yazıçılar Birliyinin Gənclərlə iş üzrə katibidir. Gənclərlə bağlı layihələrdə, tədbirlərdə onun sənətini sevdiyi, qiymətləndirdiyi ustadları yeni nəsillərə necə təqdim etməsinin dəfələrlə şahidi olmuşam. Keçirdiyi tədbirlər, bu tədbirlərin aparıcısı kimi danışdıqları, eyni maraqları, oxşar dünyaları olan adamları birləşdirmək xasiyyəti ayrıca mövzudur. Sadə detallarla böyük mətləbləri deməyin tərəfdarı olduğum üçün bircə məqama diqqət çəkəcəyəm. Dəfələrlə "525-ci qəzet"in redaksiyasında iş prosesində Rəşad müəllimin telefonuna zəng gələndə necə cavab verməsini eşitmişəm. Ovqatından asılı olmayaraq, zəng edən Şirməmməd Hüseynov, yazıçı Anar, şair Ramiz Rövşən, yaxud başqa USTAD bildiyi, dəyər verdiyi adamdırsa, Rəşad müəllim anındaca böyüyünə qulluq etmək istəyən uşağa dönür və elə bu kitabda da mənim üçün (əminəm ki, oxucu üçün də!) təsirli olan bu isimlərə xitabıdır.

"Anar müəllimin hələ 1976-cı ildə yazdığı "Şairin hünəri" məqaləsini xatırlatdım..."

"Aqil Abbas kövrəldir..."

"Ramiz Rövşən qıcıqlandırır..."

"Müəmmayla doldurur zehnimizi Kamal Abdulla..."

"Canlı tarixdir, qürur mənbəyidir Şirməmməd müəllim!"

"Akademik İsa Həbibbəylinin şövqlə, gördüyü işdən aldığı zövqlə iki gün ərzində tədbirlərə ayrı bir hərəkət və emosiya qatması hələ də yaddaşımın ən gözəl yerində öz təravətini saxlayır..."

Başqaları və onların uğurları, müsbət keyfiyyətləri haqqında rahat, komplekssiz danışmaq ziyalıya məxsus cəhətdir. Rəşad Məcidin də "Qələmsiz yazılanlar"ında müxtəlif müəlliflər (gənc, ya yaşlı, fərq etməz), əsərlər haqqında səxavətlə söz açması onun ziyalı xarakterini dəqiqləşdirir. Eyni zamanda ölkə gündəmində baş verənlərə operativ reaksiyası, ən qalmaqallı məsələlərə də çəkinmədən münasibət bildirməsi, üstəgəl, bəzi çağdaş "qara xəbər" həvəskarlarından fərqli olaraq, pozitivi bölüşməyə çalışması da elə həmin tezisin davamıdır.

Rəşad Məcidin 50 yaşı tamam olanda mətbuatda müxtəlif yubiley yazıları dərc olunurdu. Sonra o yazılar "Cığıraçan" adlı kitabda toplandı. Həmin kitabın redaktoru və ön söz

müəllifi kimi bir ciddi məqama fikir vermişdim. Rəşad müəllimlə fərqli vaxtlarda və şəraitlərdə ünsiyyətdə olan, işləyən, onu oxuyan müəlliflərin bir-birindən seçilən yazılarını bir ümumi cəhət birləşdirirdi. Az qala hər kəs Rəşad Məcidin xeyirxahlığından və yumorundan söz açırdı. Və mən elə bu kitabda toplanmış, aralarında on il fərq olan yazıları oxuyanda başa düşürəm ki, insan dəyişilmir. Rəşad Məcidin də bu illər ərzində bir az da itilənən cəhəti yumorudur.

"Günahkar buluddur da! Çox yağdı!"

"Novruz bayramının bərəkəti və coşqusundandır ki, 1 yanvar doğumlular bu qədər çoxdur!"

"Kimə lazımdı e sənin bu yekəlikdə yazın?!"

"Kondisioner orucu batil eləmir ki, görən?"

"Beynimizi qarpıza işlətdik!"

Folklorda heç bir fikir elə-belə, boş yerdən yaranmır. Rəşad müəllimin sarkazmlı, yumoristik statusları "sözün düzünü zarafatla deyərlər" – məsəlini yadıma saldı. Bəli, əsas niyyət düzünü deməkdi – zarafata salaraq, cəsarət nümayiş etdirərək, yaxud üstüörtülü danışaraq...

Amma bütün bu yazılanlar ölkəmizi, milləti, ən nəhayət, müəllifi ifadə etməsiylə bərabər, sənət hadisəsi də sayılırmı? Doğrudan da, status-esselər yeni janr hesab oluna bilərmi?! Məncə, oluna bilər... Ən azı ona görə ki, bizim oxşar üslubda, eyni lakoniklikdə folklorumuz var. Bu statusların içərisindən nə qədər atalar məsəli, aforizm, zərb-məsəl, bir az da dərinə getsək, hətta mif, əfsanə çıxarmaq olar... Ona görə yüz-yüz illər öncə ağız ədəbiyyatı şifahi formada dildən-dilə keçərək yaranırdısa, müasir texnika əsrində bu cür əmələ gəlir, deyə bilərik.

... Və bir də bu yazılar zaman dəyirmanına qoşulub qaçaqaç yaşayan, özünə aid olmağa vaxt tapmayan, özüylə təkbətəklikdən çəkinən qələm adamının "qələmdən imtinası" kimi qavranılır. Kitabda "yazmaq" ideyası özü müxtəlif ovqatlarda fərqli şəkildə görünür...

"Bu alışqanlıq da yaxşı şey deyil! Asılılığa çevrilir! Can qurtarmaq olmur – nə feysbukdan, nə siqaretdən, nə yazmaqdan, nə də!.."

"Sevgi yaşamağın yeganə və sonuncu şansıdırsa, yazmaq da darıxmağın, sıxıntının çarəsi sayıla bilər, yəqin".

"Yazmaq, yazmaqdan alınan həzz Sonrakıydı!! İkincisiydi!! Birincidən, ən üstün ləzzətdən, ən ilahi zövqdən əli üzülənlərin uydurmasıydı yazmağın birinci zövq olması!"

"İndi də onun hənirini duyur, nəfəsini hiss edir, ürəyinin döyüntüsünü eşidir və yazmaqdan, yaza-yaza yaşamaqdan zövq alırdı".

"Dəqiqələri saatlara çevirib mənasız günlərdən bezməmək üçün yazmaq!"

"Yazmaqdan qorxduğum vaxtlar çox olub! Bunun səbəbləri barədə fikirləşmişəm də, yazmışam da. İndi də bir az qorxu var içimdə – ola bilsin, keçirdiklərimi, düşündüklərimi sözə çevirə bilməyəcəyimin qorxusu var!"

Beləliklə, yazmaq, daha doğrusu, yaradıcılıq həyatın da, zamanın da, ovqatın da müxtəlif vəziyyətlərində fərqli şəkildə qəbul olunur, dərk edilir. Yazmaq bu gün qorxuludusa, sabah xilasdır, birigün pis vərdiş kimidir, bir həftə sonra dünyanın ən böyük zövqü, bir ay sonra dəhşətli işgəncəsi ola bilər. Bu ovqat bütün yazan, hərfi hərfə, sözü sözə qoşan, cümləni cümləyə calayan adamlarda var, sadəcə, hamı etiraf edə bilmir və yəqin, Rəşad Məcidin bu kitabın müəllifi kimi üstünlüyü hisslərini bəzək-düzəksiz danışmasıdır. Ona görə hətta bəzəkli-düzəkli "Sms-esselər" bölümü də adama ən səmimi etiraf, həzin pıçıltı təsiri bağışlayır. Bu pərakəndə, xaotik, heç bir şəkildə hansısa eyni ideya altında birləşməyən yazıları böyük bir romanın parçaları kimi də qəbul edə bilərik. Nədənsə oxuduqca Andre Moruanın "Yad qadına məktublar" əsərini yada salırdım. Yeniyetməliyimdə o əsəri, məktubları oxuduqca xeyli təsirlənirdim. Çünki kişi yad qadınla hər gün vidalaşıb sabah yenidən salamlaşır, bölüşürsə, deməli, buna ehtiyac duyur. Morua isə bu ehtiyacı son dərəcə həssas detallarla ifadə edirdi. Rəşad Məcidin bəzən birinci, bəzən üçüncü şəxsin dilindən yazdığı, mənsur şeirə bənzəyən mətnləri dərdləşmə deyil, bölüşmə deyil, bəlkə, əslində özünü dərketmə, qadından, sevgidən, insan hisslərindən danışa-danışa özünü anlama cəhdidir. Və məhz bu mətnlər müəllifin özünəməxsus şair olduğunu önə çə-

kir, dillər əzbəri misralarını yada salır. Bir anlıq müxtəlif şeirləri və elə bu kitabda yer alan esseləri gözümün önündən, yaddaş lentimdən keçir və başa düşürəm ki, burda təsirli olan qadını QADIN görmək arzusudur. Və bu yerdə bir xatirəmi də bölüşmək istərdim. Bir neçə il öncə Yazıçılar Birliyinin keçirdiyi tədbirlərdən birinə Cənubi Azərbaycandan şairlər qatılmışdılar, ziyafətdə bir masa arxasında əyləşmişdik. İrandan başıbağlı çıxmış və video görüntülərə görə hicabını çıxarmayan qadın axşamın qaranlığında bir az sərbəst olmaq istəyirdi. Həm də bizlərin, azad həmvətənlərinin içərisində bir neçə saatlıq da olsa, rahat, müstəqil hiss etmək istəyirdi özünü. Hər halda, mən onun naqolay halından bunu hiss edirdim. Birdən Rəşad müəllim qadına – “Rahat olun, onsuz da video-filan çəkilmir ki” – dedi. Bir azdan şairə xanımın başını açıb sərbəst deyib-gülməsinə, məclis əhlinə qoşulub rəqs etməsinə necə baxdığını, həm də uşaq kimi sevindiyini unutmuram. Və elə “Sms-esselər”dəki QADINı söz-söz oxuduqca düşünürəm ki, Rəşad Məcid qadına münasibətiylə Sevili çadradan xilas edib işığa çıxaran Cəfər Cabbarlının, Gülçöhrəyə “Əgər sevməsəm, ailə qurmaram” dedizdirən və onu qalib edən Üzeyir bəy Hacıbəylinin, Nazlıya “Gəl, tutum əlindən, gedək, dünyanı gəzək” deyən Mirzə Cəlilin davamçısıdır. Amma onun bu sələflərindən fərqli olaraq, təkcə maarifçilik ideyalarını yox, “şəxsi hisslərini” də açıq, rahat şəkildə yazmağı kitabın ikinci bölümünü oxunaqlı edir. Çünki əslində öz duyğularını danışmaqla, gündəlik təsiri bağışlayan qeydlərini oxucuya təqdim etməklə yaşamağın reseptini verir Rəşad Məcid.

Müasir dünyada motivasiya xarakterli, “yaşa”, “sevin”, “kef elə” ideyalı əsərlər populyardır. Mənə görə, “Qələmsiz yazılanlar”ın bir üstün cəhəti də müəllifin pozitivə kökləməsi və həyatı sadə, rahat təqdim etməsidir. Sadəcə, hər kəs özünə uyğun olanı, öz bacardığını, anladığını götürməlidi bu kitabdan. Ona görə mən sakitcə gedirəm və  “Qələmsiz yazılanlar”la baş-başa qoyuram sizləri...

